**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Respublikasının**
**Elm və Təhsil Nazirliyinin**
**3-23/3-2-548 E/2025 nömrəli 08.09 2025-ci il**
**tarixli əmri ilə təsdiq edilmişdir.**

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın şifri və adı: 7002013 - Psixologiya**

**Bakı – 2025**

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **7002013 - Psixologiya** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra – "Təhsil Proqramı") "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələbələrinə uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirmək;
- Təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və öyrənmə metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək ;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

2.2. **Təhsil Proqramının sonunda 7002013-Psixologiya ixtisasının ixtisaslaşmaları üzrə məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir: .**

**"Ailə psixologiyası" ixtisaslaşmasının peşə səriştələri:**

- Ailənin psixoloji məsələlərini, o cümlədən konfliktologiyanın, şəxsiyyətlərarası və ailədaxili münasibətlərin xüsusiyyətlərini anlayaraq problemli situasiyanı həll edə bilmək, psixodiaqnostik və ailə terapiyası metodlarından istifadə etmək;
- Ailə üzvlərinə, ailədaxili münaqişlərin aradan qaldırılmasına psixoloji dəstək göstərmək, cütlüklərin ailədaxili şəraitə adaptasiyasını təmin edə bilmək və emosional vəziyyətlərini müəyyənləşdirmək, onlarla psixoloji iş aparmaq, konsultasiyalar keçirmək və zəruri hallarda psixoloji yardım edə bilmək;
- Ailədaxili münasibətlərdə ortaya çıxan kommunikativ, emosional, etik və davranış problemləri, münaqişə vəziyyətində n yaranan çətinliklər üçün müdaxilə proqramları tərtib və tətbiq etmək;
- Ümumi və klinik psixologiyanın əsas müddəalarından və prinsiplərindən istifadə edərək sosial münasibətlərin mahiyyətinə varmaq və
- izah etmək həmçinin ailə böhranları sahəsində dərin biliklərin köməyi ilə kəskin vəziyyətləri həll etmək;
- Ailədə, onun üzvləri arasında psixoloji rifahı dəstəkləmək, əlverişli psixoloji iqlim şəraiti yaratmağı və zorakı davarnışların qarşısını almağa yönəlik fəaliyyətlər təşkil etmək;
- Ailə psixologiyası sahəsində psixoloji araşdırmalar aparmaq, elmi-metodoloji yanaşmalardan istifadə etmək;
- Ailə münasibətlərində konfliktlərin eskalasiyasının qarşısının alınması üçün effektiv ünsiyyətin qurulması və qarşılıqlı fəaliyyətin mexanzimlərini müəyyənləşdirmək;
- İlkin müsahibə aparmaq, bu müddət ərzində münaqişənin bütün tərəflərini dinləmək, problemi müəyyənləşdirmək və onun səbəbini tapmağa çalışmaq, eyni zamanda psixoloji üsulları seçmək və münaqişə vəziyyətini aradan qaldırmaq üçün fəaliyyət planı hazırlamaq.

**"Klinik (tibbi) psixologiya" ixtisaslaşmasının peşə səriştələri:**

- Psixoloji testlər, müsahibə, söhbət, müşahidə metodlarını tətbiq etməklə insanın psixi vəziyyətini düzgün qiymətləndirmək;
- Psixoloji gərginlik vəziyyətində fərdi və qrup halında, həmçinin ailələrlə işləmək, onların emosional-psixoloji problemlərini aradan qaldırmaq, davranışlarına təsir etmək üçün müdaxilə etmək, psixoloji dəstək göstərmək;
- Elmi əsaslı psixoloji terapiyaları tətbiq etmək;
- Etik peşə davranışına malik olmaq, məxfiliyi qorumaq, mədəniyyətlərarası həssaslıq və insan hüquqlarına əməl etmək;
- Komanda ilə işləmək bacarığına malik olmaq, həkimlər və sosial işçilərlə birgə işləyərək yardım göstərmək;
- Superviziya və təlimlərdə iştirak etmək, peşəkar səviyyəsini yüksəltmək, elmi yenilikləri izləmək.

**"İnkişaf psixologiyası" ixtisaslaşmasının peşə səriştələri:**

- İnkişafın əsas psixoloji qanunauyğunluqlarını, müxtəlif inkişaf nəzəriyyələrini analiz etmək və müasir yanaşmalarla müqayisə etmək, ontogenetik (Fərdin doğulandan yaşlılığa qədər) inkişaf mərhələlərini (bioloji, kognitiv, emosional və sosial) nəzəri modellərlə izah etmək;
- İnkişafın müxtəlif mərhələlərində baş verən normal dəyişilmələri və patologiyaları fərqli yaş qruplarına uyğun psixoloji diaqnostik metod və testlərdən istifadə edərək qiymətləndirmək, , inkişaf pozuntularını vaxtında aşkarlayıb düzgün müdaxilə proqramı hazırlamaq;

- Uşaqlar, yeniyetmələr, gənclər, böyüklər və yaşlılarla iş zamanı onların inkişaf xüsusiyyətlərini müşahidə və təhlil etmək, inkişafın kritik dövrlərini və mümkün risk faktorlarını müəyyənləşdirmək;
- Uşaq və yeniyetmələrdə fiziki, emosional, koqnitiv və sosial inkişafda ləngimlər və pozuntular zamanı inkişaf risklərini azaltmağa yönəlik fərdi və qrup psixoloji müdaxilə proqramları hazırlamaq və həyata keçirmək;
- İnkişaf psixologiyası sahəsində etik prinsipləri gözləməklə tədqiqat sualları formalaşdırmaq, empirik tədqiqat aparmaq, nəticələri təhlil və təqdim edə bilmək, elmi əsaslı psixoloji qiymətləndirmə alətləri yaratmaq və uyğun metodologiya ilə tətbiq etmək;
- İnkişaf dövrlərində yaranan çətinliklərlə bağlı valideyn və müəllimlərlə psixoloji məsləhət işi qurmaq, ailə sistemində inkişafla bağlı risk amillərini analiz etmək, korreksiya aparmaq və dəstək vermək;
- Keyfiyyət və kəmiyyət tədqiqat metodlarından istifadə etməklə inkişaf psixologiyası sahəsində araşdırma aparmaq və nəticələri elmi əsaslarla təhlil etmək.

**"Sosial psixologiya" ixtisaslaşmasının peşə səriştələri:**

- Sosial psixologiyanın əsas nəzəriyyələri haqqında dərin biliklərə malik olmaq, insan davranışını sosial kontekstdə izah edən metod və modelləri tətbiq etmək, sosial qruplar, təşkilatləar, cəmiyyət və mədəniyyətin psixoloji təsirini qiymətləndirmək;
- İxtisasına uyğun məsələlərin həlli üçün əlavə məlumat resuslarını müəyyən etmək və seçə bilmək; əaliyyətində siyasi, sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək;
- İnsan və sosial qrupların davranışını qiymətləndirərək psixoloji müdaxilələr üçün təkliflər vermək;
- Sosial davranışları və qrup münasibətlərini təhlil edərək risk və baş verən dəyişiklikləri nəzərə alaraq sosial problemlərə uyğun strategiyalar hazırlamaq;
- Başqalarından öyrənmək, digərlərinin tələbatlarını, fikirlərini və hərəkətlərini nəzərə alaraq empati qurmaq, komanda şəklində işləyə və multidisiplinar qruplarla əməkdaşlıq etmək; Qrupda yaranan konfliktləri həll etmək, problemlərin həllinə yönəlik kollektiv və çoxtərəfli əməkdaşlıqda iştirak etmək;
- Mürəkkəb problemlərin həlli məqsədilə problemə yönəlik fərqli yanaşmalardan istifadə etmək, , kompleks və ədalətli qərarlar qəbul etmək.

**"Məhkəmə psixologiyası" ixtisaslaşmasının peşə səriştələri:**

- Cinayət və mülki işlər üzrə psixoloji ekspertiza təşkil etmək, şəxsin psixi vəziyyətini, məsuliyyət qabiliyyətini, ifadəvermə və müdafiə hüququnu anlama bacarığını qiymətləndirmək və ekspert rəyini peşəkar şəkildə tərtib etmək;
- Kriminal davranışı təhlil etmək, cinayətkarın motivasiyası, şəxsiyyət xüsusiyyətləri və davranış nümunələri əsasında cinayətkarın psixoloji portretini tərtib etmək;
- Cinayət qurbanlarının psixoloji vəziyyətini qiymətləndirmək, qurbanın emosional və psixoloji travma vəziyyətini analiz etmək, onun ifadəvermə qabiliyyətini və qorunma ehtiyaclarını müəyyənləşdirmək, həmçinin qurbanla empatik və etik yanaşma qurmaq;
- Penitensiar psixoloji dəstək göstərmək, cəzaçəkmə müəssisələrində məhkumlarla işləmək, onların sosial adaptasiyası, təkrar cinayətlərin qarşısının alınması və psixi vəziyyətinin monitorinqi üçün uyğun psixoloji yanaşmaları tətbiq etmək;
- Hüquqa zidd davranış göstərən yeniyetmələrin sosial-psixoloji risk faktorlarını analiz etmək, reabilitasiya və profilaktika proqramları hazırlamaq və icra etmək;

- Məhkəmə proseslərində tərəflər arasında psixoloji münaqişələrin həllinə yönəlmiş mediasiya aparmaq, psixoloji arqumentləri hüquqi çərçivədə əsaslandırmaq və effektiv ünsiyyət strategiyalarını tətbiq etmək;
- Kibercinayətlərin psixoloji aspektlərini təhlil etmək, kibercinayətkarların davranış və motivasiya modellərini analiz etmək, onların psixoloji portretini qurmaq və texnoloji mühitdə baş verən hüquq pozuntularının psixoloji qiymətləndirilməsini aparmaq;
- Əməliyyat-axtarış və istintaq fəaliyyətində psixoloji dəstək göstərmək, şübhəlilərin dindirilməsi, şahidlərin ifadələrinin psixoloji analizi və davranış modellərinin deşifrə edilməsi proseslərində hüquq-mühafizə orqanlarına psixoloji yardım göstərmək;
- Probasiya nəzarətində olan şəxslərin sosial-psixoloji vəziyyətini qiymətləndirmək, onların yenidən sosiallaşma və cinayətdən uzaqlaşma prosesinə psixoloji yardım göstərmək, reabilitasiya proqramlarında iştirak və psixoloji müşahidə aparmaq.

**"Hüquq psixologiyası" ixtisaslaşmasının peşə səriştələri:**

- Hüquq psixologiyası sahəsində müasir elmi yanaşmaları, beynəlxalq təcrübəni və normativ-hüquqi bazanı tətbiq etmə;
- Hüquqi fəaliyyət sahəsində etik normalara və peşə məsuliyyətinə riayət etmək, hüquq psixoloqunun peşə etikası çərçivəsində məxfilik, obyektivlik və psixoloji təhlükəsizlik prinsiplərini təmin etmək bacarığı;
- Psixodiaqnostik metodları, testləri və layihə metodikalarını hüquqi kontekstdə düzgün tətbiq etmək;
- Kriminal davranışının formalaşma mərhələlərini, motivasiya mexanizmlərini və psixoloji determinantlarını təhlil etmək;
- Cinayətkar şəxsiyyətinin psixoloji portretini və davranış modelini tərtib etmək, risk və təhlükəlilik səviyyəsini müəyyənləşdirmək;
- Əməliyyat-axtarış və istintaq fəaliyyətində psixoloji dəstək göstərmək, şahidlərin dindirilməsi, ifadələrin psixoloji analizi və davranış modellərinin deşifrə edilməsi proseslərində hüquq-mühafizə orqanlarına psixoloji yardım göstərmək ;
- Cinayət və mülki işlər üzrə psixoloji ekspertizanı planlaşdırmaq, təşkil etmək və həyata keçirmək, ekspert rəyini hüquqi tələblərə uyğun şəkildə tərtib etmək;
- Yetkinlik yaşına çatmayan və gənclər arasında hüquqazidd davranışın psixoloji profilaktikasını həyata keçirmək, risk qruplarını müəyyənləşdirmək və hüquqi maarifləndirmə yönümlü psixoloji proqramlar hazırlamaq;
- Cinayət qurbanlarının psixoloji vəziyyətini qiymətləndirmək, qurbanın emosional və psixoloji travma vəziyyətini analiz etmək, onun ifadəvermə qabiliyyətini və qorunma ehtiyaclarını müəyyənləşdirmək, həmçinin qurbanla empatik və etik yanaşma qurmaq;
- Penitensiar psixoloji dəstək göstərmək, cəzaçəkmə müəssisələrində məhkumlarla işləmək, onların sosial adaptasiyası, təkrar cinayətlərin qarşısının alınması və psixi vəziyyətinin monitorinqi üçün uyğun psixoloji yanaşmaları tətbiq etmək;

**"Təhsil psixologiyası" ixtisaslaşmasının peşə səriştələri:**

- Elmi-psixoloji yanaşmaları tənqidi reallığa uyğunlaşdırmaq, psixoloji bilik və bacarıqları müxtəlif praktiki sahələrə tətbiq etmək;
- Müxtəlif yaş və inkişaf səviyyəsinə malik təhsilalanlara psixoloji və pedaqoji dəstək göstərmək, şəxsiyyətlərarası münasibətləri və sosiallaşmanı nəzərə alaraq fərdi yanaşma tətbiq etmək;
- Təhsildə davranış, emosional və öyrənmə çətinlikləri üçün korreksiyaedici və inkişaf etdirici proqramlar hazırlayıb həyata keçirmək;
- Təhsil və şəxsi inkişaf, təlimə psixopedaqoji dəstək göstərmək, adaptasiya, motivasiya və emosional vəziyyətləri nizamlamaq;

- Psixodiaqnostik üsullardan istifadə etməklə norma və patologiyanı ayırd etmək, nəticələri riyazi-statistik metodlarla analiz etmək;
- İstedadlı, sağlamlıq imkanları məhdud və xüsusi təhsil tələbatlı uşaqların identifikasiyası və dəstək strategiyalarının hazırlanmasında iştirak etmək;
- Münaqişəli vəziyyətlərdə vasitəçilik etmək, psixoloji iqlimi optimallaşdırmaq, pedaqoji və psixoloji münasibətlərin səmərəliliyini təmin etmək;
- Psixoloji, tibbi və pedaqoji komissiyalarda iştirak etmək, təhsilin nəticələrini psixoloji-pedaqoji baxımdan təhlil etmək;
- Təhsil müəssisəsində psixoloji xidmətin planlaşdırılması və koordinasiyasını həyata keçirmək.

**"Tətbiqi psixologiya" ixtisaslaşmasının peşə səriştələri:**

- Müasir psixologiyanın metodoloji əsaslarını, onun səviyyələrini, tarixini, prinsiplərini, əsas anlayışlarını və kateqoriyalarını təhlil etmək;
- Psixoloji tədqiqatın üsullarını tətbiq etmək, müxtəlif test vasitələri ilə fərdi və qrup səviyyəsində psixoloji problemləri müəyyənləşdirmək və qiymətləndirmək;
- Normal və patoloji psixi funksiyaları fərqləndirmək, stress və adaptasiya mexanizmlərini müəyyənləşdirmək;
- Psixologiyanın əsas istiqamətlərini, tətbiqi psixologiyanın əsas nəzəriyyələrini praktikada tətbiq etməklə insan davranışını izah etmək və korreksiya etmək;
- Peşəseçmənin elmi-nəzəri əsaslarını praktikada tətbiq edərək (testlər vasitəsilə) fərdlərin peşə istiqamətlərini düzgün müəyyənləşdirmək;
- Fərd və qrupla effektiv ünsiyyət qurmaq, empati göstəmək, etibarlı ortam yaratmaq;
- Psixoloji halətlərin tədqiqinin əsas nəzəri istiqamətlərini bilmək və praktikada tətbiq etməklə problemi müəyyənləşdirmək və psixoloji müdaxilənin planını hazırlayıb tətbiq etmək;
- Fərdlərlə və qruplarla işləyərkən yaş psixologiyasının zəruri bölmələri olan uşaq psixologiyası, kiçik məktəblilərin, yeniyetmələrin, erkən gənclik dövrünün, yaşlı insanların, qocaların psixoloji xüsusiyyətlərini nəzərə almaq və yaş xüsusiyyətlərinə uyğun psixoloji müdaxilə planı hazırlamaq;
- Psixodiaqnostik metodlarla şəxsiyyətin fərdi-psixoloji qiymətləndirilməsini, şəxsiyyət tipini müəyyənləşdirmək;
- Hüquqi psixologiyanın müasir inkişaf səviyyəsində çıxış edərək, onun əsas müddəa və prinsiplərini ibtidai istintaq zamanı, məhkəmə-psixoloji ekspertizasında, məhkumların islahı prosesində tətbiq etmək;
- Hüquq-mühafizə orqanlarına seçilən namizədlərin peşə yararlığını testlər vasitəsilə qiymətləndirmək, hüquq-mühafizə orqanlarının əməkdaşlarının (müstəntiq və s.) professioqramını yaratmaq;
- İnkişaf psixologiyası və yaradıcılıq psixologiyasının əsas müddəa və prinsiplərini nəzərə almaqla testlər və başqa ölçmə vasitələri ilə yaradıcı insanları düzgün qiymətləndirmək;
- Sosial qrupların tədqiqinin metodoloji məsələləri, qruplararası münasibətlərin idarə olunmasının psixoloji məsələlərini təhlil etmək.
- Pedaqoji psixologiya elminin hazırkı vəziyyətini, onun inkişaf perspektivliklərini və tendensiyasını təhlil etmək və təhsilalanlarla seanslarda bunu nəzərə almaq.

**"Hərbi psixologiya" ixtisaslaşmasının peşə səriştələri:**

- Hərbi mühitdə insan davranışı, stress və döyüş şəraitində psixoloji reaksiyaları təxmin etmək (elmi əsaslardan çıxış edərək proqnoz vermək);
- Hərbi mühitdə və sülh şəraitində İnsan davranışını, motivasiyasını və emosiyalarını tanımaq;
- Fərdi və qrup terapiyası, kognitiv davranış terapiyası və digər müalicə yanaşmalarını tətbiq etmək;
- Hərbi personalın seçimi, adaptasiyası və qiymətləndirilməsi üçün test və müxtəlif metodları tətbiq etmək;
- Döyüş və yüksək riskli şəraitdə stressi qiymətləndirmək və psixoloji strategiya qurmaq və tətbiq

etmək;

- Fərdi və qrup səviyyəsində hərbi personalın motivasiyası və inkişafı planını hazırlamaq və tətbiq etmək;
- Hərbi təşkilatların strukturu, mədəniyyəti və dinamikası.
- Müharibə, döyüş və digər hərbi fəaliyyətlərin psixoloji təsirləri.
- Hərbi şəxslərin yaşadığı stress, PTSD (post-travmatik stress pozuntusu) və digər psixoloji problemləri müəyyənləşdirilmək, qiymətləndirilmək və müasir metodlarla (EMDR) korreksiya etmək.

**"Uşaq və yeniyetmə psixologiyası" ixtisaslaşmasının peşə səriştələri:**

- Uşaqlarla işi uşaqların və yeniyetmələrin inkişaf mərhələləri, bu mərhələlərdəki psixoloji dəyişikliklər, yaş xüsusiyyətləri nəzərə almaqla qurmaq; .
- Uşaq və yeniyetmələrdə tez-tez rast gəlinən psixi pozuntular və davranış problemlərini müəyynələşdirmək və korreksiya planı hazırlamaq;
- Uşaq və yeniyetmələrlə iş prosesində test və müşahidə metodunu tətbiq etmək;
- Hər bir uşağın fərdi-psixoloji xüsusiyyətlərini, inkişaf istiqamətini düzgün müəyyənləşdirmək;
- Uşaq və yeniyetmələrin emosional-psixoloji rifahını təmin etmək;
- Uşaq və yeniyetmələrdə emosional və sosial problemlərin müəyyən etmək və fərdi və qrup psixoloji dəstək planını hazırlamaq və tətbiq etmək;
- Davranış pozuntuları zamanı - uşaq və yeniyetmələrdə yaygın davranış problemlərinin (məsələn, diqqət defisiti, hiperaktivlik, anksiyete) korreksiyasını təmin etmək;.
- Uşaqların emosional vəziyyətlərini müəyyənləşdirmək və dəstəkləmək.
- Uşaqlara və yeniyetmələrə uyğun psixoterapiya yanaşmalarını (məsələn, oyun terapiyası, kognitiv davranış terapiyası) tətbiq etmək;
- Ailə dinamikasını anlamaq və ailə ilə birlikdə işləmək;
- Uşaqların və yeniyetmələrin psixoloji vəziyyətini qiymətləndirmək müxtəlif alətlərdən istifadə etmək;
- Uşaqların davranışlarını və sosial qarşılıqlı əlaqələrini müşahidə etmək və süzgün təsiretmə mexanizminin planını hazırlamaq;
- Psixoloqun etik standartlara riayət etməsi, gizlilik və müştəri hüquqlarını qorunmasını təmin etmək;
- Davamlı təhsil və peşəkar inkişaf üçün yeni tədqiqatları izləmək;
- Uşaqvə yeniyetmələrlə, onların valideynləri ilə effektiv ünsiyyət qurmaq;
- Ailələr və məktəblərlə əməkdaşlıq edərək uşaqların inkişafını dəstəkləmək;
- Müxtəlif mədəniyyətlərdə uşaqların inkişafını və davranışlarını təhlil etmək;
- Uşaqların və yeniyetmələrin hüquqlarını və sosial ədalət prinsiplərini müdafiə etmək.

**"Siyasi psixologiya" ixtisaslaşmasının peşə səriştələri:**

- Siyasi müstəvidə psixoloji məqamları müəyyənləşdirmək və düzgün siyasi-psixoloji təhlil vermək;
- Siyasi proseslərdə fərdin, qrupların və liderin rolunu düzgün müəyyənləşdirməklə proqnoz vermək;
- Siyasətdə mədəniyyətin, stereotiplərin rolunu nəzərə almaqla siyasi davranış və qrup dinamikasını izah etmək;,
- Fərdlərin siyasi baxışlarını və ideoloji təsirlərini qiymətləndirmək;
- Media və mesajların sosial təsirini analiz etmək;
- Seçki davranışı və qruplararasımünasibətləri təhlil etmək;
- Siyasi davranış və qrup reaksiyalarını qiymətləndirərək tövsiyələr vermək;
- Propaqanda və ictimai rəyin psixoloji aspektlərini təhlil etmək, proqnoz vermək və modigikasiyasını təklif etmək;
- Siyasi qrupların dinamikasını və effektivliyini təmin etmək;
- Debat və ictimai müzakirələrdə dinamikanı və etik prinsiplərin qorunmasını təmin etmək;
- Siyasi psixologiya sahəsində araşdırmalar aparmaq üçün statistik və keyfiyyət metodlarından

istifadə etmək;

- Siyasi məlumatları və anket nəticələrini təhlil etmək;
- Siyasi psixologiya sahəsində etik standartlara riayət etmək;
- Davamlı təhsil və yeni tədqiqatları izləmək;
- Siyasi münaqişələrin psixoloji dinamikalarını anlamaq və dialoq yollarını inkişaf etdirmək.

## 3. Təhsil Proqramının strukturu

3.1. 7002013-Psixologiya təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmanın adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Ailə psixologiyası | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Klinik (tibbi) psixologiya | | | |
| İnkişaf psixologiyası | | | |
| Sosial psixologiya | | | |
| Məhkəmə psixologiyası | | | |
| Hüquq psixologiyası | | | |
| Təhsil psixologiyası | | | |
| Tətbiqi psixologiya | | | |
| Hərbi psixologiya | | | |
| Uşaq və yeniyetmə psixologiyası | | | |
| Siyasi psixologiya | | | |

3.2. Təhsil proqramı 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Tədqiqat metodları**<br><br>*Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur.* | 6 |
| 2 | **Akademik yazı və etika**<br><br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |

| | | |
|---|---|---|
| 3 | **Tədqiqat analitikası**<br><br>*Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur.* | 6 |
| 4 | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər[1]** | 72 |

[1] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu,

| | | |
|---|---|---|
| | *ixtisaslaşmadan asılı olaraq buraya daxil edilən fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında öz əksini tapır.* | |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər**[2] *Müvafiq fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada ixtisaslaşmadan asılı olaraq müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında əksini tapır.* | |
| | **Təcrübə** | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 |
| ... | **Elmi tədqiqat təcrübəsi** | 6 |
| | **Dissertasiya işi** | |
| ... | **Magistrlik dissertasiyası** | 18 |
| **CƏMİ** | | **120** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

---

yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir və müvafiq ixtisaslaşma üzrə qəbul olan təhsilalan üçün məcburi xarakter daşıyır. Bu bölmədə minimum 4 fənn olmalıdır.

[2] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Sözügedən fənlər müəyyən edilən zaman əmək bazarının təklifləri də nəzərə alınır və bu məqsədlə ali təhsil müəssisələri və əmək bazarı nümayəndələrindən ibarət işçi qrupunun yaradılması tövsiyə olunur. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər təhsilalanlar üçün seçmə xarakter daşımalı, eləcə də təhsilalanların xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır. Bu bölmədə minimum 3 fənn olmalıdır.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. **7002013-Psixologiya ixtisasının ixtisaslaşmaları** üzrə təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- Tədris və metodiki baza,
- İnformasiya-kommunikasiya texnologiyaları,
- Elmi-tədqiqat bazası,
- Müasir avadanlıqlarla təchiz edilmiş dərs otaqları (kompüter, proyektor, interaktiv lövhə və s.)
- Psixoloji testlər və təcrübələr keçirmək üçün laboratoriyalar (tədris məqsədilə), seminar otaqları informasiya-kommunikasiya texnologiyaları,
- Psixrometrik testlər, məlumat analizi və proqram təminatı üçün laboratoriyalar (tədqiqat aparmaq məqsədilə, yəni tədqiqat aparmağı təmin edən SPSS, MATLAB, E-Prime, NVivo kimi analitik və psixrometrik proqramlarla təmin olunmuş laboratoriyalar,
- Təcrübə və müşahidə seanslarını təmin edən – müşahidəni və video çəkilişləri təmin edən, praktik dərslərin qeyd olunması və təhlili üçün kamera və mikrofonlarla təchiz olunmuş laboratoriyalar/otaqlar, məxfiliyi, şəxsi məlumatları qorumaq üçün sistemlər.
- Online tədris platformaları
- Bioloji və ya neyropsixoloji laboratoriyalar (ixtisaslaşmaya uyğun)
- Hər biri ilə işgüzar müqavilə əsasında psixoloji mərkəzlər, məktəblər, xəstəxanalar və təşkilatlarla əməkdaşlıq.
- İnsan resursları,
- Psixoloji və sosial dəstək infrastrukturu,
- Kitabxana və resurs mərkəzi,
- İxtisaslaşma üzrə fakültədə yüksək ixtisaslı kadr potensialı, xüsusilə psixologiya və s. indekslər üzrə elmi dərəcəli professor-müəllim heyəti;
- SCOPUS, COPERNICUS, ERİHPLUS, Web of SCIENCE və digər beynəlxalq indekslərdirmə jurnallarına çıxış imkanları;
- İxtisas üzrə professor-müəllim heyətinin və magistranların birgə tədqiqat qrant layihələrinə çıxış imkanları, ixtisaslaşma üzrə yerli və xarici ölkə universitetləri ilə təcrübə, mübadilə proqramları imkanları.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

**6.1 7002013 - Psixologiya** ixtisası üzrə məzunlar aşağıdakı sahələrdə və peşələrdə işləyə bilərlər:

"Ailə psixologiyası" ixtisaslaşması üzrə:

- Məktəb və Universitetlərdə fəaliyyət göstərən Psixoloji xidmət mərkəzlərində psixoloq;
- Uşaq inkişaf mərkəzlərində, sosial xidmət və uşaq müdafiəsi mərkəzlərində psixoloq;
- Öz şəxsi psixoloji məsləhət kabinetlərində psixoloq;

- Xəstəxanalar və sağlamlıq klinikalarında terapevt;
- Ailə və qadın problemləri üzrə dövlət proqramlarında psixoloq.

"Klinik (tibbi) psixologiya" ixtisaslaşması üzrə:

- Yerli uşaq və böyük poliklinkalarında, özəl klinikalarda psixoloq;
- Təcili Yardım Müəssisələrində Klinik Psixoloq;
- Özəl Psixoloji Reabilitasiya Mərkəzində Psixoloq;
- Psixoterapevt;
- Öz şəxsi psixoloji məsləhət kabinetində psixoloq;
- Universitetlərdə və Tədqiqat institutlarında öz sahəsi üzrə tədqiqatçı və ya müəllim;
- Sosial xidmət orqanlarında (psixoloji dəstək və məsləhət), hərbi və təhlükəsizlik strukturlarında (stress və travma dəstəyi), məhkəmə ekspertizasında (məhkəmə iştirakçıları üçün qiymətləndirmə) ekspert;
- Travma və sosial dəstək proqramlarında, insan hüquqları layihələrində ekspert.

"İnkişaf psixologiyası" ixtisaslaşması üzrə:

- Məktəblərdə məktəb psixoloqu;
- Universitetlərdə Psixoloji xidmət mərkəzlərində psixoloq;
- Uşaq bağçaları və inkişaf mərkəzlərində psixoloq;
- Xüsusi inkişaf proqramları olan müəssisələrdə, uşaq və yeniyetmə klinikalarında, psixi sağlamlıq mərkəzlərində, reabilitasiya mərkəzlərində, sosial xidmət orqanlarında, art studiolarda psixoloq;
- Öz şəxsi psixoloji məsləhət kabinetində psixoloq;
- Fərdi inkişaf psixoloqu;
- Özəl Şirkətlərdə inkişaf mütəxəsisi;
- Karyera Planlama, kooç və mentor yetişdirmə üzrə psixoloq;
- Dövlət Qulluğunda çalışanlar üçün inkişaf mütəxəsisi;
- Universitetlərdə və Tədqiqat institutlarında öz sahəsi üzrə tədqiqatçı və ya müəllim.

"Sosial psixologiya" ixtisaslaşması üzrə:

- Sosial Araşdırma mərkəzlərində ictimai rəy araşdırıcısı, sosial proqramların icraçısı;Hökumət və dövlət strukturlarında sosial xidmət mərkəzlərində ictimai siyasət və davranış dəyişiklikləri üzrə siyasi və sosial proqramların hazırlanması layihələrində mütəxəssis;
- İnsan resursları departamentində mütəxəssis;
- Özəl şirkətlərdə , konsultasiya və strateji məsləhət firmalarında mütəxəssis;
- Sosial Müdafiə Agentliklərinin rayon və şəhər mərkəzlərində Sosial Psixoloq;
- İnternat müəssisələri və uşaq evlərində sosial psixoloq və ixtisaslı mütəxəssis,
- Qocalar evində yüksək ixtisaslı psixoloq,
- Dövlət və Özəl Tibbi Reabilitasiya müəssisəsində sosial psixoloq,
- Yerli İcra Hakimiyyətində uşaq hüquqlarının qorunması komissiyasında sosial psixoloq
- Öz şəxsi psixoloji məsləhət kabinetində psixoloq;
- Universitetlərdə və Tədqiqat institutlarında öz sahəsi üzrə tədqiqatçı və ya müəllim.

"Məhkəmə psixologiyası" ixtisaslaşması üzrə:

- Məhkəmə psixoloqu;
- Ekspert psixoloq;
- Psixoloji ekspertiza üzrə mütəxəssis;
- Hüquq-mühafizə orqanlarında və penitensiar müəssisələrdə psixoloq;

- Ədliyyə Nazirliyinin Probasiya Xidmətində psixoloq;
- Risk və ehtiyacların psixoloji qiymətləndirilməsi üzrə mütəxəssis;
- İctimai işlərə cəlb olunmuş şəxslərlə davranış korreksiyası üzrə psixoloq;
- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mərkəzlərində psixoloq;
- Qəyyumluq orqanlarında ekspert;
- Boşanma, qəyyumluq, zorakılıq hallarında rəy verən psixoloq;
- DOST Mərkəzlərində psixoloq;
- Reabilitasiya mərkəzləri və sığınacaqlarda psixoloq;
- Ali təhsil müəssisələrində müəllim
- Tədqiqat institutlarında elmi işçi
- Qeyri-hökumət təşkilatlarında hüquqi-psixoloji layihələrin icraçısı və ya eksperti;
- UNICEF, UNDP, UNFPA, ICRC kimi beynəlxalq qurumların layihələrində psixoloq;
- Bu sahələr məzunlara həm dövlət, həm də özəl və beynəlxalq qurumlarda geniş iş imkanları təqdim edir. Məzunlar, eyni zamanda, müstəqil ekspert və ya konsultant psixoloq kimi fəaliyyət göstərə bilər. Universitetlərdə və Tədqiqat institutlarında öz sahəsi üzrə tədqiqatçı və ya müəllim.

"Hüquq psixologiyası" ixtisaslaşması üzrə:

- Ekspert-psixoloq və ya məsləhətçi;
- Psixoloji ekspertiza üzrə mütəxəssis;
- Hüquq-mühafizə orqanlarında psixoloq;
- Penitensiar müəssisələrdə psixoloq;
- Ədliyyə Nazirliyinin Probasiya Xidmətində hüquqi-psixoloji müşahidə və reabilitasiya üzrə mütəxəssis;
- Probasiya və icra nəzarətində olan şəxslərlə davranışın korreksiyası üzrə psixoloq;
- Hüquqazidd və deviant davranışın profilaktikası üzrə mütəxəssis;
- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən mərkəzlərdə hüquqi-psixoloji dəstək üzrə psixoloq;
- Mediasiya proseslərində hüquqi-psixoloji müşayiət üzrə mütəxəssis;
- Ailə münaqişələri, valideynlik hüquqları, qəyyumluq və məişət zorakılığı halları üzrə psixoloji rəy verən ekspert;
- Reabilitasiya mərkəzlərində hüquqi-psixoloji dəstək üzrə mütəxəssis;
- UNICEF, UNDP, UNFPA, ICRC və digər beynəlxalq təşkilatların hüquqi-psixoloji yönümlü proqram və layihələrində psixoloq;
- Ali təhsil müəssisələrində hüquq psixologiyası və əlaqəli fənlər üzrə müəllim;
- Elmi-tədqiqat institutlarında hüquq psixologiyası sahəsində elmi işçi və tədqiqatçı

"Təhsil psixologiyası" ixtisaslaşması üzrə:

- Təhsil Psixoloqu;
- Məktəb Psixoloqu;
- Bağça və məktəbəqədər müəssisələrində psixoloq;
- Uşaq İnkişaf mərkəzində psixoloq;
- Xüsusi Reablitasiya Mərkəzində psixoloq;
- Psixoloji Mərkəzlərdə təhsil psixoloqu;
- Peşə yönümlü kolleclərdə ixtisaslı psixoloq;
- Öz şəxsi psixoloji məsləhət kabinetində psixoloq;
- Universitetlərdə və Tədqiqat institutlarında öz sahəsi üzrə tədqiqatçı və ya müəllim.

"Tətbiqi psixologiya" ixtisaslaşması üzrə:

- Marketinq psixoloqu;

- İnsan Resursları Mütəxəssisi
- Konsultant psixoloq;
- Müstəqil psixoloq ekspert;
- Öz şəxsi psixoloji məsləhət kabinetində psixoloq;
- Universitetlərdə və Tədqiqat institutlarında öz sahəsi üzrə tədqiqatçı və ya müəllim.

"Hərbi psixologiya" ixtisaslaşması üzrə:

- Hərbi bölmələrdə, hərbi təlim mərkəzlərində, hərbi hospital və reabilitasiya mərkəzlərində, hərbi məktəb və akademiyalarda hərbi psixoloq
- Hərbçilərə və veteranlara psixoloji dəstək mütəxəssisi;
- Öz şəxsi psixoloji məsləhət kabinetində psixoloq;
- Universitetlərdə və Tədqiqat institutlarında öz sahəsi üzrə tədqiqatçı və ya müəllim.

"Uşaq və yeniyetmə psixologiyası" ixtisaslaşması üzrə:

Məktəblərdə və məktəbyaşlı uşaqlara psixoloji xidmət mərkəzlərində, uşaq bağçaları və uşaq inkişaf mərkəzlərində, pediatriya klinikaları və xəstəxanalarda, ailə, qadın və uşaq mərkəzlərində, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində, sığınacaq evlərində, Psixi sağlamlıq mərkəzlərində, Reabilitasiya və erkən müdaxilə mərkəzlərində, sosial xidmət orqanlarında uşaqların müdafiəsi və sosial adaptasiyası şöbələrində (sahələrində), uşaq hüquqları və inkişaf layihələri ilə QHT-lərdə, valideynlər və uşaqlar üçün fərdi və qrup proqramlarında, uşaq evlərində:

- Uşaq psixoloqu,
- Oyun terapevti,
- Məktəb psixoloqu;
- Öz şəxsi psixoloji məsləhət kabinetində psixoloq;
- Universitetlərdə və Tədqiqat institutlarında öz sahəsi üzrə tədqiqatçı və ya müəllim.

"Siyasi psixologiya" ixtisaslaşması üzrə:

Dövlət və hökumət strukturlarında, siyasi partiyalarda, diplomatik korpuslarda:

- Siyasi kampaniya mütəxəssisi;
- Siyasi məsləhətçi;
- Siyasi tədqiqatçı;
- Sosial psixologiya mütəxəssisi;
- Siyasi kommunikasiya mütəxəssisi;
- Siyasi analitik.

Öz şəxsi psixoloji məsləhət kabinetində psixoloq;
Universitetlərdə və Tədqiqat institutlarında öz sahəsi üzrə tədqiqatçı və ya müəllim.

6.2 Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3 Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4 Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

| **Ailə psixologiyası ixtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN 1 Ailə psixologiyası, ailə münasibətləri, valideyn-övlad münasibəti və bu sahədə mövcud nəzəriyyələri və ailənin inkişafı ilə bağlı klassik və müasir bilikləri dərindən bilir. |
| PTN 2 Müxtəlif ailə situasiyalarını psixoloji cəhətdən təhlil etir, tənqidi yanaşmalar tətbiq etə bilir, və yeni modelləri müqayisə edərək qiymətləndirir. |
| PTN 3 Peşəkar fəaliyyət sahəsində yenilikləri izləyir, , mütəmadi öz bilik və bacarıqlarını artıraraq motivasiyasını artırmağı bacarır. Ailə münasibətlərində psixoloji problemləri diaqnostika etmək və uyğun metodlarla qiymətləndirməyi bacarır. Psixoloji tədqiqat layihələri hazırlayır, empirik məlumat toplayır, statistik və keyfiyyət analizi apararaq problemi izah edir. |
| PTN 4 Müxtəlif psixoloji yanaşmaları inteqrasiya edərək real ailə problemlərinə tətbiq edir, psixoloji terapiya, məsləhət və korreksiya işlərini tətbiq edə bilir. |
| PTN 5 Psixoloji qiymətləndirmə və müdaxilə,intervensiya üçün müasir texnologiyaları və rəqəmsal alətlərdən istifadə edə bilir. |
| PTN 6 Psixoloq peşəsinin etik normalarına əməl edir, məxfilyi təmin edir və insan hüquqlarına hörmətlə yanaşır. |
| PTN 7 Ailə münasibətlərində münaqişələrin həlli, effektiv kommunikasiya və adaptasiya strategiyalarını işləyib hazırlamağı bacarır. Ailə və cəmiyyət münasibətləri, fərdin ailəni formalaşdırmağa hazırlığı, sevgi hisslərinin inkişafı dialektikası, ailənin həyat dövrləri, həyat yoldaşları, uşaqlar və valideynlər arasında münasibətlər məsələlərində problem müəyyənləsdirir və müdaxilə strategiyalarını qurur və tətbiq edir.. |
| PTN 8 Ailənin inkişafının müxtəlif mərhələlərində ona psixoloji dəstək göstərməyə, ailənin yaradılması məsələləri üzrə məsləhətləşmələrə, ailə münaqişələrinin və böhranların konstruktiv həllinə, boşanma vəziyyətlərində psixoloji yardıma, uşaqların tərbiyəsi problemləri və nikah və valideyn-uşaq münasibətlərinin optimallaşdırılması imkanlarına hazır olmasını təmin edir. |

| **"Klinik (tibbi) psixologiya" ixtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN 1 . Klinik psixologiya fənninin innovativ inkişafı, son nailiyyətləri və perspektivləri haqqında məlumatları əldə etmək, təhlil etmək və təqdim etmək üçün müasir informasiya texnologiyalarından istifadə etməyi bacarır; |
| PTN 2 Psixopatologiyanın təsnifatını () və diaqnostikasını dərindən bilir. Müxtəlif diaqnostik metodlardan (kliniki müsahibə, testlər, müşahidə) istifadə edərək psixi pozuntuları düzgün qiymətləndirə bilir. |
| PTN 3 Müasir psixoterapiya istiqamətlərini (KDT, psixodinamika, humanist) dərindən bilir və onları tətbiq etməyi bacarır. |
| PTN 4 Klinik psixologiyanın əsas müddəa və prinsiplərini bilir və psixi yardım zamanı pasiyentlərlə etibarlı tepapevtik əlaqə yarada bilir və etik prinsiplərə əməl edir, o cümlədən məxfiliyi qoruyur. |
| PTN Qrupda – həkim, sosial işçi, pedaqoq və s. mütəxəssislərlə komanda şəklində işləyə bilir. |
| PTN 6 Psixi sağlamlığın qorunması, erkən müdaxilə, reabilitasiya proqramlarının hazırlanmasınıa iştirak edir. |

| **İnkişaf psixologiyası ixtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN 1 Müxtəlif yaş dövrləri üzrə (uşaqlıq, yeniyetməlik, yetkinlik və yaşlılıq) psixoloji inkişaf xüsusiyyətlərini izah edir; Klassik və müasir inkişaf nəzəriyyələrini (Piaget, Erikson, Vygotsky və s.) təhlil edə bilir; |
| PTN 2 Fərqli yaş mərhələlərinə aid tipik və atipik inkişaf xüsusiyyətlərini analiz edə bilir. İnkişafın çoxfaktorlu və sistemli xarakterini anlayır və bu amillərin qarşılıqlı təsirini nəzərə alaraq analiz aparır; |

| |
|---|
| PTN 3 Yaş dövrlərinə uyğun testlər, müşahidə və müsahibə metodları ilə uşaq və yeniyetmələrin inkişaf xüsusiyyətlərini müəyyənləşdirə bilir, psixoloji vəziyyəti qiymətləndirir, Normal və patoloji inkişafı fərqləndirə və düzgün diaqnostika qərarları verə bilir. Davranış, emosional və sosial inkişafda gerilikləri və riskləri aşkarlaya, təhlil edə və qabaqlayıcı tədbirlər planlaşdıra bilir; |
| PTN 4 Fərdi və qrup əsaslı inkişaf dəstəkləyici proqramlar qurur (xüsusilə uşaqlar və yeniyetmələr üçün), müşahidə və test nəticələrinə əsasən fərdiləşdirilmiş müdaxilə planı hazırlayır. İnkişaf mühitində olan riskləri azaldan strategiyalar təqdim edir. Psixoloji müdaxilə strategiyalarını tərtib və tətbiq edə bilir; |
| PTN 5 Beynəlxalq elmi ədəbiyyatları təhlil edir və müasir inkişaf psixologiyası trendlərini izləyir. Elmi tədqiqatların planlaşdırılması, həyata keçirilməsi və nəticələrin şərhi bacarığını nümayiş etdirir. Etik prinsiplərə əməl edərək tədqiqat sualı formalaşdırır, hipotez irəli sürür, uyğun metodologiya seçir və nəticələri analiz edərək təqdim edir, Tədqiqat nəticələrini elmi və praktik baxımdan əsaslandıra bilir; |
| PTN 6 Multidissiplinar komandalarla əməkdaşlıq edə və sosial psixoloji müdaxilə sahəsində peşəkar fəaliyyət göstərə bilir. Öz peşə fəaliyyətində innovativ yanaşmalar və rəqəmsal texnologiyalardan istifadə edir, davamlı inkişaf prqramlarına açıqdır. |

| **"Sosial psixologiya" ixtisaslaşması üzrə Təhil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN 1 Sosial davranış anlayışının mahiyyətinə varır. Təhsilalanlar, insanların sosial mühitdəki davranışlarını, münasibətlərini və qarşılıqlı təsirlərini öyrənərək, sosial davranışınlpsixoloji əsaslarını izah edir. Bu, sosial normlar, rollar və qrupların təsirini əhatə edir. |
| PTN 2 Qrup dinamikası nəzəriyyəsini bilir: Qrupların necə formalaşdığını, inkişaf etdiyini və fəaliyyət göstərdiyini öyrənmək, tələbələrə qrupdaxili münasibətlərin, liderliyin və münaqişələrin psixoloji aspektlərini təhlil edir. |
| PTN 3 Sosial identiklik nəzəriyyəsini bilir: Təhsilalanlar insanların özlərini və başqalarını necə qruplaşdırdıqlarını, sosial identikliklərin formalaşmasını və bu identikliklərin davranışa təsirini qiymətləndirir. Bu, stereotiplər, ön mühakimələr və diskriminasiya məsələlərini əhatə edir. |
| PTN 4 Əlaqə və münasibətlər nəzəriyyəsini bilir: Sosial psixologiya, insanların bir-biri ilə necə ünsiyyət qurduğunu və münasibətlərini necə inkişaf etdirdiyini öyrənməyə imkan verəcək. Bu, verbal və qeyri-verbal kommunikasiya, empatiya və münaqişə həlli bacarıqlarını əhatə edir. |
| PTN 5 Sosial təsir nəzəriyyəsini bilir: Təhsilalanlar, insanların başqalarının davranışlarından necə təsirləndiklərini öyrənərək, sosial təsirin psixoloji mexanizmlərini anlamaq imkanı əldə edəcəklər. Bu, konformizm, itaət və sosial təsir strategiyalarını əhatə edir. |
| PTN 6 Sosial problemlərin Hhəll nəzəriyyəsini bilir: Sosial psixologiya, sosial problemlərin (məsələn, yoxsulluq, ədalətsizlik) psixoloji aspektlərini təhlil edir və problemlərin həlli üçün psixoloji yanaşmaları inkişaf etdirmək imkanı əldə edir. |

| **"Məhkəmə psixologiyası" ixtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN 1. Məhkəmə psixologiyası və hüquq sahəsində elmi bilikləri inteqrasiya edərək psixoloji ekspertiza və məhkəmə psixoloji qiymətləndirməni bacarır. |
| PTN 2. Kriminal və viktimoloji psixologiya bilikləri əsasında cinayətkar və qurbanların psixoloji profillərini hazırlayır və və qiymətləndirir. |
| PTN 3. Məhkəmə-psixoloji ekspertiza, məhkəmə psixiatriyası və patopsixoloji təhlil üzrə müstəqil ekspert rəyini formalaşdırır və təqdim edir. |
| PTN 4. Penitensiar və probasiya psixologiyası üzrə tətbiqi biliklərə əsasən, məhkumların və nəzarət altında olan şəxslərin psixoloji qiymətləndirilməsini aparmağı bacarır. |

| |
|---|
| PTN 5. Kibercinayət və istintaq sahəsində müasir psixoloji metod və texnologiyaları tətbiq edərək cinayətlərin psixoloji analizi və profilini tərtib etməyi bacarır. |
| PTN 6. Məhkəmə mübahisələrinin psixoloji yönlərini və mediaiya bacarıqlarını mənimsəyərək hüquqi münaqişələrin effektiv psixoloji tənzimlənməsini təmin edir. |

| "Hüquq psixologiyası" ixtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Hüquq psixologiyası sahəsində nəzəri və tətbiqi bilikləri inteqrasiya edərək hüquqi proseslərdə şəxslərin psixoloji vəziyyətinin kompleks qiymətləndirilməsini həyata keçirir |
| PTN 2. Cinayətkarın psixologiyası, kriminal davranışı və psixi anomaliyalar üzrə biliklərə əsaslanaraq hüquqazidd davranışın psixoloji mexanizmlərini təhlil edir, risk faktorlarını müəyyənləşdirir və cinayətkarın psixoloji portretini tərtib etməyi bacarır, eləcə də cinayət qurbanlarının psixoloji vəziyyətini qiymətləndirir və onlara psixoloji dəstək ehtiyaclarını müəyyənləşdirə bilir |
| PTN 3. İbtidai istintaq və əməliyyat-axtarış fəaliyyəti çərçivəsində psixoloji bilikləri tətbiq edərək şübhəli, təqsirləndirilən və şahidlərin davranış xüsusiyyətlərini analiz edir və istintaq prosesinə psixoloji dəstək göstərir |
| PTN 4. Kiberpsixologiya və kibercinayətlərin psixoloji xüsusiyyətləri üzrə müasir metod və texnologiyalardan istifadə edərək texnoloji mühitdə baş verən hüquq pozuntularının psixoloji analizini və davranış profilini tərtib edir |
| PTN 5. Penitensiar və probasiya psixologiyası üzrə tətbiqi biliklər əsasında məhkumların və nəzarət altında olan şəxslərin psixoloji qiymətləndirilməsini aparır və reabilitasiya proseslərinə töhfə verir |
| PTN 6. Hüquqi mübahisələrin psixoloji aspektlərini və mediasiya bacarıqlarını mənimsəyərək, hüquq psixologiyasının tədqiqat metodlarını tətbiq etməklə hüquqi konfliktlərin elmi əsaslı psixoloji tənzimlənməsini və ekspert rəyinin formalaşdırılmasını təmin edir. |

| Təhsil psixologiyası ixtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| PTN 1 Təhsil psixologiyası, yaş psixologiyası, inkişaf psixologiyası, öyrənmə nəzəriyyələri və şəxsiyyətin inkişafı ilə bağlı əsas nəzəriyyələrini bilir və motivasiya modellərini tətbiq etməyi bacarır. |
| PTN 2 Təhsil prosesində psixoloji faktorların (diqqət, motivasiya emosiyalar) rolunu bilir və izah edir. Müxtəlif təlim-tərbiyə situasiyalarını psixoloji cəhətdən təhlil edir. |
| PTN 3 Peşəkar fəaliyyət sahəsində yenilikləri izləmək, mütəmadi öz bilik və bacarıqlarını artırmaq motivasiyasına sahiblənirPsixoloji tədqiqat layihələri hazırlayır, empirik məlumat toplayırstatistik və keyfiyyət analizi aparmağı bacarır. |
| PTN 4 Müxtəlif psixoloji yanaşmaları inteqrasiya edərək real təhsil problemlərinə tətbiq edir. |
| PTN 5 Psixoloji qiymətləndirmə və intervensiya üçün müasir texnologiyaları və rəqəmsal alətlərdən istifadə edə bilir. |
| PTN 6 Psixoloq peşəsinin etik normalarına əməl edir, tmək, məxfiliyə və insan hüquqlarına hörmətlə yanaşır. |

| Tətbiqi psixologiya ixtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| PTN 1 Tətbiqi psixologiyanın əsas istiqamətlərini – təşkilatı psixologiya, idman psixologiyası, təhsil psixologiyası, sağlamlıq psixologiyası və s. bilir və fərqləri aşkar edir. |
| PTN 2 Şəxsiyyət psixologiyasının əsas nəzəri-təcrübi biliklərini müxtəlif sahələrdə (təhsil, iş yeri, sağlamlıq, sosial mühit) psixoloji vəziyyətin diaqnostikası üçün praktik tətbiq edərək testlərdən istifadə edir, müşahidə aparır və səmərəli metodlardan istifadə edir. |

| |
|---|
| PTN 3 Tədbiqi psixologiyanın metodlarından istifadə edərək eksperimental psixologiyanın ənənəvi metodları ilə yanaşı, spesifik metodlardan da - professioqramlar, yeni model testlər, davranışın koqnitiv terapiyası və s. istifadə edir. |
| PTN 4 Komandada işləyə bilir, psixoloji problemlərin həllində digər mütəxəssislərlə birgə qərarvermədə iştiak edir. |
| PTN 5 Peşə davranışına əməl edir, hərəkətləri etik tələblərə cavab verir, məxfiliyi qoruyur. |
| PTN 6 Fəaliyyət göstərdiyi sahəni sosial- emosional aspektdən öyrənir, təhlil edir pozitiv təhsilin prinsiplərinə uyğun tələbələrin müsbət emosiyalarının, güclü şəxsi tərəflərinin və resurslarının artırılması, eləcə də onların özünü inkişaf etdirmə və uğur qazanma qabiliyyətlərini inkişaf etdirir. |

| **"Hərbi psixologiya" ixtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN1 Hərbi stressin idarə edilməsi: Stressin simptomlarını tanıyır, stressi idarəetmə texnikalarını bilir və dəstək sistemlərini yaradır. Hərbi mühitdəki stressin və travmanın təsirlərini öyrənərək, bu vəziyyətlərlə mübarizə aparmaq üçün effektiv strategiyalar hazırlayır. |
| PTN2 Psixoloji dəstək metodları: Hərbi psixoloqlar, hərbi şəxslərə və onların ailələrinə psixoloji dəstək verərkən fərdi və qrup terapiyası, psixoloji qiymətləndirmə və müalicə yanaşmalarını (EMDR və s.) əhatə edir. |
| PTN3 Komanda dinamikası: Hərbi mühitdə komanda işinin və liderliyin əhəmiyyətini anlayır, komandirlər və şəxsi heyətlə iş prosesində motivasiya və liderlik mexanizmlərini tətbiq etməyi bacarır.. |
| PTN4 Psixoloji qiymətləndirmə: Hərbi şəxslərin psixoloji vəziyyətini qiymətləndirmək, psixoloji sağlamlığın monitorinqi üçün testlər və anketlərdən istifadə edir və müvafiq müdaxilələrin planlaşdırır və tətbiq edir. |
| PTN5 Müharibə və psixologiya: Müharibə zamanı və sonrası, fövqaladə hallarda effektiv təsietməyi bacarırPTSD, depressiya və digər psixoloji pozuntular zamanı psixoloji yardım göstərir. |
| PTN6 Etik prinsiplər: Hərbi psixologiyada qəbul olunmuş etik standartlara riayət edir, məxfiliyi qoruyur. |

| **"Siyasi psixologiya" İxtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN1 Siyasi psixologiyanın əsas anlayıçlarını, nəzəriyyələrini və tədqiqat istiqamətlərini bilir. Siyasi davranışın anlayışının mahiyyətini izah edir. Təhsilalanların, , seçicilərin davranışlarını, siyasi partiyaların və ideologiyaların psixoloji aspektlərini təhlil edir, öyrənərək, insanların siyasi qərarlarını necə qəbul etdiklərini və bu qərarların arxasında duran motivasiyaları qiymətləndirir. |
| PTN2 Siyasi emosiyalar, siyasi qavrama və siyasi təfəkkür anlayışlarının mahiyyətini bilir: Siyasi qərarların qəbulunda emosiyaların siyasi təfəkkürə təsirini qitmətləndirir, siyasi liderlərin və partiyaların mesajlarının necə formalaşdığını izah eedir və ictimai rəyin cımiyyətə necə təsir etdiyini müəyyənləşdirir. |
| PTN3 Kütlə psixologiyası, siyasi liderlik, ideologiya və siyasi davranış mexanizmlərini bilir və izah edir. |
| PTN4 Siyasi konfliktlər, manipulyasiya, təbliğat və informasiya psixologiyası ilə bağlı analiz və qiymətlənirmə aparmağı bacarır. |
| PTN5 KİV-in siyasi fikrin və ictimai rəyni formalaşmasındakı rolunu və mexanizmlərini bilir və izah edir. Şailərin yaranması, yayılması və onların qarşısının alınması mexanizmlərini, kütləvi əhval- ruhiyyənin yaranması, inkişafı müxanizmlərini bilir və qiymətləndirir və qarşısının alınması yollarını izah edir. |
| PTN6 Siyasi Strategiyalar: Siyasi kampaniyaların psixoloji aspektlərini müəyyənləşdirir, strategiyalar qurur, siyasi mühitdə effektiv kampaniyalar planlaşdırmaq və icra etmək yollarını təklif edir. |

| "Uşaq və yeniyetmə psixologiyası" ixtisaslaşması üzrə Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| PTN1 İnkişaf Mərhələləri: Tələbələr, uşaqların və yeniyetmələrin psixoloji inkişaf mərhələlərini tanımaqla, onların davranışlarını və emosional vəziyyətlərini daha yaxşı anlamaq imkanı əldə edəcəklər. Bu, Piaget, Erikson və digər inkişaf psixoloqlarının nəzəriyyələrini əhatə edir. |
| PTN2 Davranış Pozuntuları: Uşaq və yeniyetmələrdə yaygın davranış problemlərinin tanınması və müalicəsi, tələbələrə bu pozuntuların səbəblərini anlamaq və müvafiq müdaxilələr planlaşdırmaq üçün biliklər verəcək. Bu, ADHD, anksiyete, depressiya və digər pozuntuları əhatə edir. |
| PTN3 Oyun Terapiyası: Uşaqlara psixoloji dəstək vermək üçün oyun terapiyasının tətbiqi, tələbələrə uşaqların duyğularını ifadə etmələri və problemləri həll etmələri üçün oyun vasitələrini necə istifadə edəcəyini öyrənməyə kömək edəcək. |
| PTN4 Ailə Dinamikası: Ailənin uşaqların psixoloji inkişafındakı rolunu anlamaq, tələbələrə ailə mühitinin uşaqların davranışlarına və emosional sağlamlığına təsirini öyrənməyə imkan verəcək. Bu, ailə terapiyası və valideynlik strategiyalarını əhatə edir. |
| PTN5 Sosial Bacarıqların İnkişafı: Uşaqların sosial bacarıqlarını inkişaf etdirmək üçün strategiyalar öyrənmək, tələbələrə uşaqların dostluq, əməkdaşlıq və münaqişə həlli bacarıqlarını inkişaf etdirməyə kömək edəcək. |
| PTN6 Psixoloji Qiymətləndirmə: Uşaqların psixoloji vəziyyətini qiymətləndirmək üçün metodlar öyrənmək, tələbələrə müvafiq testlər və anketlərdən istifadə edərək uşaqların ehtiyac |
| **"Tədqiqat metodları" fənn üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| **FTN 2.** Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| **FTN 3.** Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| **FTN 4.** Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqi- qat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| **FTN 5.** Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| **FTN 6.** Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə biləcək. |
| **"Akademik yazı və etika" fənn üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| **FTN 2.** Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| **FTN 3.** Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| **FTN 4.** Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |

| |
|---|
| **FTN 5.** Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| **FTN 6.** Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |
| **"Tədqiqat analitikası" fənn üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsulla-rını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. |
| **FTN 2.** Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| **FTN 3.** Fərqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| **FTN 4.** Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperi-mental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| **FTN 5.** Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| **FTN 6.** Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |
| **"Elmi-pedaqoji təcrübə" üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| **FTN 2.** Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| **FTN 3.** Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| **FTN 4.** Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| **FTN 5.** Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| **FTN 6.** Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |
| **"Elmi-tədqiqat təcrübəsi" üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** İxtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd və vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| **FTN 2.** Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhlil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |
| **FTN 3.** Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |

| |
|---|
| **FTN 4.** Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| **FTN 5.** Tədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| **FTN 6.** Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |
| **"Magistrlik dissertasiyası" üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| **FTN 2.** İxtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| **FTN 3.** Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| **FTN 4.** Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| **FTN 5.** Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| **FTN 6.** Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

**Əlavə 2**

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisaslaşmanın təhsil proqramının təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyənləşdirməlidir.

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | |
|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 |
| Tədqiqat metodları | | | | | | |
| Akademik yazı və etika | | | | | | |
| Tədqiqat analitikası | | | | | | |
| Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər | | | | | | |
| Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər | | | | | | |
| Elmi-pedaqoji təcrübə | | | | | | |
| Elmi tədqiqat təcrübəsi | | | | | | |
| Magistrlik dissertasiyası | | | | | | |

**Razılaşdırıldı:**

**Elm, ali və peşə təhsili şöbəsinin müdiri**

______________________ **Turxan Süleyman**

**Humanitar və sosial ixtisasları qrupu üzrə İşçi qrupunun həmsədrləri**

SƏNƏDLƏR ÜÇÜN

______________________ **Urxan Ələkbərov**

AZƏRBAYCAN RESPUBLİKASI VƏKİLLƏR KOLLEGİYASININ RƏYASƏT HEYƏTİ

______________________ **Anar Bağırov**